

***Bu gün Azərbaycan Ordusu şəxsi heyətin döyüş qabiliyyətinə, müasir silah-sursat təchizatına, maddi-texniki bazasına görə dünyada ən yüksək pillələrdən birindədir. Çünki ölkəmizdə ordu quruculuğuna, hərbçilərimizin sosial rifahının, məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət göstərilir. Ölkə başçısının bu diqqəti Silahlı Qüvvələrimizin şəxsi heyətinin istər hərbi hissədəki xidmət şəraitinin, istərsə də gündəlik məişət problemlərinin tamamilə həll olunmasına vəsilə olur. Biz bu gün ordu sahəsində atılan addımların müsbət səmərəsinin şahidi oluruq. Təsadüfi deyil ki, Azərbaycan Ordusu dünyanın ən güclü, müasir ordularından birinə çevrilib. Bu fikirləri, ölkəmizdə hərbçilərə göstərilən dövlət qayğısından bəhs edən Azərbaycan Dövlət Elmi-Tədqiqat Tibbi Bərpa İnsitutunun direktoru vəzifəsini icra edən, tibb elmləri üzrə fəlsəfə doktoru, dosent Nizami Nəbiyev bildirdi.***

# Hərbçilərə dövlət qayğısı artır

O qeyd etdi ki, bütün bu işlərin məntiqi nəticəsi kimi, ölkəmizdə hərbi qulluqçuların döyüş əzmi, psixoloji hazırlıq səviyyəsi yüksəlir və bu da şəxsi heyətin daha yaxşı xidmət göstərməsinə gətirib çıxarır. Bu, qarşılıqlı inamla əlaqəlidir. Yəni Azərbaycan əsgəri dövlətə arxalanır, dövlətsə öz ordusuna güvənir.

Heç kəs üçün sirr deyil ki, bu gün Azərbaycan Ordusunun döyüş təcrübəsi dünya miqyasında qəbul edilib öyrənilir. Ordumuzun qüdrəti, döyüş qabiliyyəti, peşəkarlığı ildən-ilə artır. Azərbaycanda ordu quruculuğunun inkişafı ulu öndər Heydər Əliyevin dövründə başlanmışdır. Məhz onun misilsiz xidmətləri ordumuzun bugünkü inkişaf yolunun təməlini qoymuşdur. Bu gün isə Prezident İlham Əliyev ulu öndərin yolunu uğurla davam etdirir. Ölkəmizdə ordu quruculuğunda müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, həmçinin şəxsi heyətin döyüş qabiliyyəti yüksəldilir. Bunun üçün müntəzəm genişmiqyaslı təlimlər keçirilir.

Azərbaycanda ordu quruculuğunun inkişaf etdirilməsi prosesi bir neçə istiqamətdə davam etdirilir. Qeyd edilməlidir ki, bu inkişaf prosesi təkcə yeni hərbi hissələrin yaradılması, şəxsi heyətin müasir döyüş avadanlıqları ilə təchiz edilməsi, hərbi hissələrdəki şəraitin yaxşılaşdırılması işlərini deyil, həmçinin hərbi qulluqçuların şəxsi məişət problemlərinin həll edilməsi, onlara müxtəlif sahələrdə imtiyazların tanınması, eləcə də hərbçilərin mənzillə təmin edilməsi və digər məsələləri əhatə edir. Belə ki, hər il bu işlərlə əlaqədar dövlət büdcəsindən böyük vəsait ayrılır.

Xatırlayırsınızsa, hələ Vətən müharibəsi başlamamış 1700 zabitimiz mənzillə təmin olunmuşdu. O zaman qeyd edilmişdi ki, daha 419 zabitə də ev verilməsi planlaşdırılır. Bunun üçün dövlət büdcəsindən 31,1 milyon manat vəsait ayrılıb. Həmçinin Vətən müharibəsində qazanılan tarixi zəfərdən bir gün sonra — 2020-ci il noyabrın 11-də Kliniki Tibbi Mərkəzdə müalicə alan hərbçilərlə görüşən ölkə başçısı qeyd etmişdi ki, bu il 1500 şəhid ailəsi dövlət tərəfindən evlə təmin ediləcək. Daha sonra Prezident İlham Əliyev bu məsələ ilə bağlı aidiyyəti qurumlara öz göstərişlərini verdi.

Qürurverici haldır ki, Azərbaycan builki Silahlı Qüvvələr Gününü qalib xalq kimi qeyd etdi. Əlbəttə, Vətən müharibəsində qazanılan zəfəri əsgər və zabitlərimizə borcluyuq.

Daha əvvəl qeyd etdiyim kimi, hər il ölkəmizdə ordu quruculuğu sahəsində önəmli işlər görülür, mühüm addımlar atılır. Prezident İlham Əliyev bu məsələ ilə şəxsən özü, yaxından maraqlanır. Belə ki, iyunun 25-də ölkə başçısının sərəncamına əsasən işğal olunmuş ərazilərdə həqiqi hərbi xidmətdə olan hərbi qulluqçuların aylıq maaşlarına Azərbaycan Prezidentinin əlavəsi müəyyən edildi. Qeyd olundu ki, hərbi qulluqçuların maaşlarına əlavə iyul ayının 1- dən etibarən tətbiq ediləcək. Sərəncama əsasən, bu artım vəzifə maaşlarının 20-60 faizi həcmində nəzərdə tutulub.

Eyni zamanda, sərəncamdan bir gün əvvəl — iyunun 24-də 76 mindən çox hərbçi orden və medallarla təltif olundu. Bütün bunlar Azərbaycanda hərbçilərə xüsusi diqqət və qayğı göstərildiyinin sübutudur. Bununla yanaşı bu artım həmin ərazilərdə xidmət edən hərbi qulluqçular üçün böyük stimuldur. Təbii ki, bu işlər daim davam etdiriləcək. Hərbçilərimizin məişət məsələləri zərurət yarandıqca həll olunacaq.

***Söhbəti yazdı:***
***İmran ƏLİYEV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 30 iyun.- S.8.